# Azərbaycan Memarlıq və İnşaat Universitetinin

# KEYFİYYƏT TƏMİNATI SİYASƏTİ

**Azərbaycan Memarlıq və İnşaat Universitetinin**
**Elmi Şurasının 15.07.2022-ci il tarixli**
**İclasının qərarı ilə (protokol № 10)**
**Təsdiq edilmişdir.**

**Tarix______________**

**İmza______________**

**Bakı 2022**

**MÜNDƏRİCAT**

**I. ÜMUMİ MÜDDƏALAR, MƏQSƏDLƏR VƏ PRİNSİPLƏR**

*1.1. Ümumi müddəalar*

*1.2. Əhatə dairəsi və prinsiplər*

**II. İDARƏETMƏ.**

*2.1. Rektora hesabatlılıq prinsipi*

**III. DAXİLİ KEYFİYYƏT TƏMİNATI ÜZRƏ YANAŞMA VƏ STANDARTLAR**

*3.1.Tələbələrə yönəldilmiş təhsil, tədris və qiymətləndirmə*

*3.2. Professor-müəllim heyəti peşəkarlığı*

**VI. KEYFİYYƏTƏ NƏZARƏT MƏRKƏZİNİN FƏALİYYƏTİ**

*4.1. Məqsəd*

*4.2. Fəaliyyət istiqamətləri*

**V. TƏDRİS PROQRAMLARIN MONİTORİNQİ**

**VI. İSTİNAD EDİLƏN STANDART VƏ SƏNƏDLƏR**

*Əlavə 1. Azərbaycan Memarlıq və İnşaat Universitetinin Strateji Planı*

*Əlavə 2. Keyfiyyətə Nəzarət Mərkəzinin Əsasnaməsi*

*Əlavə 3. Keyfiyyətə Nəzarət Mərkəzinin Tədbirlər Planı*

*Əlavə 4. Dərs prosesinin qiymətləndirməsi anketi.*

*Əlavə 5. Fənn Proqramı nümunəsi*

*Əlavə 6. Fənn sillabusu nümunəsi*

*Əlavə 7. Professor-müəllim heyyətinin məmnunluq səviyyəsini müəyyənləşdirmək məqsədilə keçirilən sorğu anketi*

*Əlavə 8. Tələbələrin məmnunluq səviyyəsini müəyyənləşdirmək məqsədilə keçirilən sorğu anketi*

# I. ÜMUMİ MÜDDƏALAR, MƏQSƏDLƏR VƏ PRİNSİPLƏR

## 1.1. Ümumi müddəalar

Müasir dövrdə bacarıq və qabiliyyətlərə qoyulan tələblər artdığı üçün ali təhsil həmin tələblərə yalnız innovativ metodlardan istifadə etməklə cavab verə bilər. Ali təhsilin dəyişən gözləntilərə cavab verə bilməsi üçün Azərbaycan Memarlıq və İnşaat Universitetin (bundan sonra "Universitet") fəaliyyətinin tədris prosesində tələbəyə fərdi yanaşmanın artırılması və yeni şəraitə çevik uyğunlaşa bilən tədris metodlarından istifadənin tanınması aiddir.

Universitetin keyfiyyət təminatı siyasəti Azərbaycan dövlətinin təhsil siyasəti və cəmiyyətin inkişaf perspektivləri nəzərə alınmaqla ali təhsilin yüksək səviyyədə təşkili və beynəlxalq rəqabətliliyinin artırılması yolu ilə əmək bazarının tələblərinə uyğun yaradıcı, müasir düşüncəli və yüksək ixtisaslı kadr-mütəxəssislərin hazırlanmasından ibarətdir.

Mövcud keyfiyyət təminatı siyasəti Universitetin Strateji inkişaf planının hədəflərinə uyğun olmaqla təhsilin keyfiyyətinin təmin olunmasına və fasiləsiz inkişafına yönəlmişdir. Keyfiyyət təminatı siyasəti Universitetdə həyata keçirilən fəaliyyətlərin Boloniya təhsil prosesinin müddəalarına, "Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsi"nə,"Avropa ali təhsil məkanında keyfiyyət təminatı üzrə standartlar və qaydalar"a, dövlətin bu sahədəki direktiv sənədlərinə və Azərbaycan Respublikasının Təhsil Nazirliyinin normativ-hüquqi sənədlərinə əsaslanır.

Universitetimizin bu dəyişikliklərə cavab verməsində, eləcə də tələbələrin əldə etdiyi bilik və bacarıqların təmin edilməsində keyfiyyət təminatının  və müəyyən olunmuş standartların rolu olduqca əhəmiyyətlidir.

Azərbaycan Memarlıq və İnşaat Universitetinin keyfiyyət təminatı siyasətinin əhatə dairəsi inkişaf etmiş ölkələrin təcrübələri nəzərə alınmaqla ixtisaslar üzrə təhsil proqramlarının hazırlanmasını və bu təhsil proqramlarının optimallığının, mobilliyinin təmin olunması monitorinqinin müvafiq standartlara uyğunluğunun qiymətləndirilməsini təmin etməklə yanaşı, dünyada gedən qlobal proseslər və çağırışlara uyğun olaraq informasiya texnologiyalarının inkişafı şəraitində tələbə gənclərə bu proseslərin daha səmərəli öyrədilməsi metodologiyasını müəyyənləşdirmək üçün tələbə yönümlü tədris sisteminin formalaşdırılmasını özündə ehtiva edir. Bu sistemdə təhsilalanların yüksək keyfiyyətli tədris vəsaitləri ilə təmin edilməsi onların tədrisdə daha uğurlu nəticələr əldə etməsinin başlıca şərtlərindən biridir. Təhsil proqramları ilə yanaşı tədris metodik təminatların qaydalar və standartlara uyğunlaşdırılması vacibdir. Azərbaycan Memarlıq və İnşaat Universitetində bütün tədris-metodik vəsaitlər hazırlanmış əsasnaməyə uyğun tərtib edilməlidir. Tələbəyönümlü təhsil, tədris və qiymətləndirmə sistemi tələbələrin tədris prosesində daha fəal iştirakına şərait yaratmaqla onların motivasiyasının

yüksəldilməsinə xidmət edir, onlarda özünütəhlil, müstəqil düşüncə qabiliyyətini formalaşdırmaqla yanaşı mövcud vəziyyəti təhlil edib qiymətləndirmək qabiliyyətini aşılamalıdır.

**Universitetin keyfiyyət təminatının məqsədləri:**
1. Tədris prosesinin keyfiyyətinin artırılmasına nail olmaqla Universitetin ölkə və beynəlxalq səviyyədə rəqabət qabiliyyətini yüksəltmək
2. Avropa Standartlarına və Təlimatlarına uyğun olaraq və milli tələbləri nəzərə alaraq və milli tələbləri nəzərə alaraq vahid daxili keyfiyyət təminatı sistemi işləyib hazırlamaq
3. Universitetdə keyfiyyət təminatı mədəniyyəti haqqında məlumatlılığı artırmaq
4. Daxili keyfiyyətin yüksəldilməsinə, hesabatlılığın artırılmasına və bununla da, keyfiyyət standartlarının praktiki tətbiqinə istiqamət vermək
5. Maraqlı tərəflərin ehtiyaclarını və gözləntilərini qarşılamaq məqsədilə Universitetdə keyfiyyət təminatı sisteminə uyğun olaraq fəaliyyətlərin sistemləşdirilməsinə, təkmilləşdirilməsinə və hesabatlılığın artırılmasına yönəlmək
6. Maraqlı tərəflərin, xüsusən də tələbə və işçi heyyətinin məmnunluğunu artırmaq

## 1.2. Əhatə dairəsi və prinsiplər

Mövcud Keyfiyyət Təminatı Siyasəti Universitetin bütün şöbə və struktur bölümlərində keyfiyyət idarəetmə sisteminin strukturlaşdırılması və idarə edilməsi zamanı Azərbaycan Dövlətinin təhsil siyasəti və müasir keyfiyyət idarə edilməsi anlayışına əsaslanır və bütün əmakdaşlar tərəfindən qəbul edilən əsas elementləri izah edir.
Siyasət Universitet daxilində müxtəlif bölmələr və şöbələr arasında idarəetmə funksiyalarını yerinə yetirərkən hansı növ rabitə-kommunikasiya sisteminin mövcudluğu, qərarların qəbulu məsləhətləşmə, təsdiq və monitorinq proseslərini iah edir, təhsilalanların ehtiyaclarına uyğun olaraq hazırlanmış standart təhsil proqramının həyata keçirilməsini təmin etmək üçün təhsil fəaliyyətlərində iştirak edən müxtəlif bölmələr arasında əlaqə, əməkdaşlıq və koordinasiyanın müntəzəm-davamlı mövcudluğunu ehtiva edir. Müvafiq struktur-bölmə rəbərlərinin birgə fəaliyyətləri nəticəsində təlim-tədris və tədqiqat fəaliyyətləri arasında koordinasiya gücləndirilir və dəstəklənir. Struktur bölmələri arasında koordinasiya və əməkdaşlığın gücləndirilməsi üçün mütəmadi iclaslar, görüşlər və birgə fəaliyyətlər həyata keçirilir. Bütün struktur bölmələri öz strategiyalarını və vəzifələrini universitetin strategiyasına, missiyasına və hədəflərinə nail olmaq üçün həyata

Mövcud "Keyfiyyət standartları" Təlimat Kitabçası Universitetdə təhsil prosesinin daxili keyfiyyət təminatı üzrə standart və təlimatlar toplusudur. Universitetmizin əsas məqsədlərindən biri tələbələrin cəmiyyətdə fəal vətəndaş olmağa və gələcəkdə karyera qurmağa hazırlanması, şəxsiyyət kimi inkişaf etmələrinə töhfə verilməsi, müasir və geniş biliklər bazasının yaradılması, tədqiqat və innovasiya yanaşmalarının stimullaşdırılmasıdır. Keyfiyyət təminatı məsələlərində bütün maraqlı tərəflərin (tələbə, işçi heyyəti, işə götürənlər və s.) keyfiyyət anlayışına müxtəlif aspektlərdən yanaşması nəzərə alınmalıdır.
Keyfiyyət təminatı sistemi elə bir tədris mühiti təmin etməlidir ki, tədris proqramların məzmunu, biliklərin əldə edilməsi imkanları və resurslar nəzərdə tutulmuş məqsədlərə uyğun olsun.

Universitet keyfiyyət təminatında aşağıdakı dörd prinsipə əsaslanır:

- Universitet göstərdikləri təhsil xidmətlərinin keyfiyyət təminatına birbaşa cavabdehlik daşıyır;
- Keyfiyyət təminatı Universitetdə davamlı şəkildə hər bir sahəni əhatə edərək həyata keçirilir;
- Keyfiyyət təminatı sistemi keyfiyyət mədəniyyətinin inkişaf etdirilməsini dəstəkləyir;
- Keyfiyyət təminatı tələbələrin, digər maraqlı tərəflərin və cəmiyyətin ehtiyaclarını və təhsildən gözləntilərini nəzərə alır.

## II. İDARƏETMƏ.

### 2.1. Rektora hesabatlılıq prinsipi

Universitetin rektoru keyfiyyətə nəzarət sisteminin inkişafı, tətbiqi və davamlı təkmilləşdirilməsi üçün lazım olan bütün işlərə bilavasitə özü nəzarət və rəhbərlik edir. Bu məqsədlə Universitetimizin yüksək səviyyəli rəhbərliyi:

- Universitetin Elmi Şurasında Keyfiyyətə nəzarət Mərkəzi tərəfindən təqdim olunan hesabatın qiymətləndirir.
- Keyfiyyət siyasətini və keyfiyyət məqsədlərini müəyyən edir və onların Universitetin strateji siyasətinə və əhatə dairəsinə uyğun idarə olunmasını nəzarət edir.

## III. DAXİLİ KEYFİYYƏT TƏMİNATI ÜZRƏ YANAŞMA VƏ STANDARTLAR

**3.1.Tələbələrə yönəldilmiş təhsil, tədris və qiymətləndirmə**

Tələbəyönümlü təhsil və tədris tələbələrin motivasiyanın artırılması, özünü təhlil etməsi və təhsil prosesinə cəlb olunmasında vacib rol oynayır. Bu səbəbdən, tədris proqramlarının tərtibi və tədrisi, eləcə də nəticələrin qiymətləndirilməsi diqqətlə nəzərdən keçirilməlidir.

Universitetin Keyfiyyətə Nəzarət Mərkəzinin əsas məqsədlərindən biri tələbələrin ehtiyac və gözləntilərini müəyyən etmək və bu gözləntilərin qarşılanmasını təmin etmək üçün lazımi tədbirləri həyata keçirməkdir. Bu çərçivədə, hər il müntəzəm olaraq tələbə, akademik və inzibati heyyətə məmnuniyyət anketləri əsasında sorğular keçirilir və nəticələr Rektor və bölmə rəhbərlərinə təqdim olunur (Əlavə 4,5). Təhlil nəticəsində təkmilləşdirməyə ehtiyac olan bölmələrin rəhbərlərindən bu istiqamətdə tədbirlər planı tələb olunur.

Tələbəyönümlü təhsil və tədrisin həyata keçirilməsi aşağıdakıları nəzərdə tutur:

- ehtiyac olduğu hallarda tədrisin müxtəlif yollarla həyata keçirilməsini nəzərdən keçirmək və tətbiq etmək;
- tədris formalarını və pedaqoji metodları daim qiymətləndirmək və dəyişən tələblərə uyğunlaşdırmaq;
- müəllimdən müvafiq təlimat və yardım almaq şərti ilə tələbələrdə müstəqil düşünmək qabiliyyətini stimullaşdırmaq;
- tələbə və müəllim arasında münasibətlərinin qarşılıqlı hörmət əsasında qurulmasını təmin etmək;
- tələbələrin şikayətlərinə baxılması üçün müvafiq proseduralar yaratmaq.

**3.2. Professor-müəllim heyətinin peşəkarlığı**

***Dərs prosesi monitorinqin əsas məqsədləri:***

a) professor-müəllim heyətinin pedaqoji və peşəkar inkişafına dəstək göstərmək və heyəti Universitetin bu sahədəki gözləntiləri ilə tanış etmək;
b) strateji inkişaf planında bu istiqamət üzrə qarşıya qoyulan məqsədlərə çatmaq üçün Universitetin və professor-müəllim heyətinin birgə fəaliyyətini təmin etmək;
c) ixtisasartırma və (və ya) təkmilləşməyə ehtiyacı olan kadrları müəyyən etmək;
d) kadr potensialının inkişafı vasitəsilə tədrisin keyfiyyətinə müsbət təsir etmək;
e) təlim ehtiyacları müəyyən etmək.

Tələbələrin müvafiq təcrübə, bilik və bacarıqlara yiyələnməsində müəllimlərin böyük rolu vardır. Universitetdə çalışan əməkdaşların peşəkarlığına və onların

vəzifələrini səmərəli şəkildə yerinə yetirməsini mümkün edən müvafiq mühitin yaradılması aşağıdakı məsələlərə töhfə verir:

- müəllim heyətinin peşəkar inkişafını təmin edən münbit şəraitin yaradılması və inkişaf etdirilməsi;
- tədris və tədqiqat istiqamətləri arasında əlaqənin gücləndirilməsinə yönəlmiş elmi fəaliyyətin həvəsləndirilməsi;
- tədrisdə yeni texnologiya və innovasiyaların tətbiq olunması.

## IV. KEYFİYYƏTƏ NƏZARƏT MƏRKƏZİNİN FƏALİYYƏTİ

### 4.1. Məqsəd

Keyfiyyətin səmərəli idarə edilməsini və Təhsildə Keyfiyyət Təminatı Agentliyinin (TKTA) irəli sürdüyü tələblərinə uyğunluğu təmin etmək üçün Universitetdə Keyfiyyətə Nəzarət Mərkəzi yaradılmış və Keyfiyyətə Nəzarət Şurası müəyyən edilmişdır.

Keyfiyyətə Nəzarət Mərkəzinin fəaliyyəti Azərbaycan Respublikasının “Ali Təhsil haqqında” Qanunu, Azərabaycan Memarlıq Universitetinin Strateji planı və Mərkəzin Fəaliyyət Planı əsasında qurulmuşdur (Əlavə 1 və 2).

### 42. Fəaliyyət istiqamətləri

Keyfiyyətə Nəzarət Mərkəzinin əsas fəaliyyət istiqamətləri aşağıdakılardır:

- tədrisin keyfiyyətinin yüksəldilməsi üzrə inkişaf konsepsiyalarının formalaşdırılması və onların həyata keçirilməsinə dair təkliflər hazırlamaqla yanaşı icrasında iştirak etmək;
- professor-müəllim heyyəti tərəfindən tədris olunan fənlərin proqramları və metodik materiallarının keyfiyyəti ilə ekspertizalar təşkil etmək;
- tədris-metodiki işin məzmunu, forma və metodlarının təkmilləşdirilməsi sahəsində metodiki tövsiyələri işləyib hazırlamaq;
- tədris prosesinin monitorinqi və tədris prosesinin təşkilində kafedralara və digər struktur bölmələrə metodiki yardım etmək;
- tədris-proqram sənədlərinin və metodiki materialların işlənib hazırlanmasının keyfiyyətinə nəzarət etmək;
- tədris olunan fənlər üzrə sillabusların müvafiq kafedralar tərəfindən müasir standartlara uyğun olaraq təkmilləşdirilməsini təmin etmək;
- bakalavr və magistratura səviyyələrində tədris olunan fənlərin elektron mühazirə və məşğələ materiallarının sillabuslara uyğun olaraq tələbələrin şəxsi kabinetinə yerləşdirilməsinə nəzarət etmək:

- bakalavr və magistrantlar arasında tədrisin keyfiyyəti ilə əlaqədar sorğular keçirmək;
- mərkəzin fəaliyyəti ilə bağlı daxil olan şikayətlərə baxmaq və müəyyən edilmiş qaydada tədbirlər görmək;
- mərkəzdə işlərin yerinə yetirilməsi zamanı müvafiq qayda və tələblərin pozulması halları aşkar edildikdə, bu halları araşdırmaq və rektorluğa məlumat vermək;
- elektron xidmətlərin təşkili və təkmilləşdirilməsi ilə bağlı bakalavr, magistrantlar və müəllimlərin təkliflərini toplamaq və ümumiləşdirmək;
- mərkəzin fəaliyyətinin və strukturunun təkmilləşdirilməsinə yönəlmiş təkliflər vermək və rektorluğun bu istiqamətdə verdiyi tapşırıqlarını yerinə yetirmək;
- mərkəzdə xidmətlərin təkmilləşdirilməsi ilə bağlı tətbiq edilən innovasiyaların səmərəliliyinin artırılmasını təmin etmək;
- mərkəzdə bakalavrın və magistrantın məlumat əldə etməsini asanlaşdırmaq məqsədi ilə elektron vasitələrin imkanlarından istifadə etmək;
- rektorluğun tapşırığı ilə hesabatlar, arayışlar və məlumatlar hazırlamaq və mərkəzə tapşırılmış digər vəzifələri yerinə yetirmək;
- Təhsil nazirliyinin "Təhsildə Keyfiyyət Təminatı Agentliyi" idarəsinin tələblərinə uyğun olaraq müvafiq hesabatları hazırlayıb Universitetin rəhbərliyinə təqdim etmək.

## V. TƏDRİS PROQRAMLARIN MONİTORİNQİ

Tədris proqramlarının müntəzəm olaraq monitorinqinin aparılması, nəzərdən keçirilməsi və düzəlişlərin edilməsində məqsəd tədris prosesinin lazımi qaydada icrasının təmin edilməsi və tələbələr üçün əlverişli tədris mühitinin yaradılmasıdır.
Buraya aşağıdakı məsələlərin qiymətləndirilməsi daxil edilir:

- tədris edilən proqramın həmin sahə üzrə əldə olunan nailiyyətlərin nəticələrini əks etdirməsi və bu fənn üzrə mövcud olan ən son proqramlara uyğun olmasının təmin edilməsi;
- cəmiyyətin dəyişən ehtiyaclarına cavab verməsi;
- tələbələrin proqramdan gözlədikləri nəticələr, onların ehtiyacları və proqramdan məmnunluqları;
- tədris mühiti, yardımçı xidmətlər və qeyd olunanların proqramın məqsədlərinə uyğun olması.

Tələbələrin və digər maraqlı tərəflərin iştirakı ilə proqramlar daima nəzərdən keçirilərək onlara düzəlişlər edilir. Toplanmış məlumatların təhlili aparılır və proqramın aktuallığını təmin edilməsi üçün müvafiq düzəlişlər edilir. Düzəliş edilmiş proqram ictimaiyyətə təqdim edilir.

**VI. İSTİNAD EDİLƏN SƏNƏDLƏR**

Keyfiyyətə Nəzarət Mərkəzinin fəaliyyəti Azərbaycan Respublikasının “Ali təhsil” haqqında Qanunu, Universitetin Strateji Planı və Mərkəzin təsdiq olunmuş Əsasnaməsinə uyğun olaraq tənzimlərir (Əlavə 1, Əlavə 2).

Keyfiyyətə nəzarət prosesini səmərəli təşkil olunması üçün dəqiq meyar və üsullar (monitorinq, ölçmə və qiymətləndirmə meyarları daxil olmaqla) tərtib olunmuşdur.

**Əlavə 4. Fənn proqramın nümunəsi**

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN MEMARLIQ VƏ İNŞAAT UNİVERSİTETİ**

**“TƏSDİQ EDİLMİŞDİR”**
Azərbaycan Respublikası Təhsil
Nazirliyinin “______” “______________”
202 –ci il tarixli “________” nömrəli əmri

**Bakalavr hazırlığı üçün**

**“FƏNNİN ADI”**

**fənninin PROQRAMI**

| | |
|---|---|
| İxtisas | **şifr - “ad”** |
| İxtisas kafedrası | |
| Fənni tədris edən kafedra | |
| Kurs | |
| Semestr | |
| Fənnə ayrılmış kreditlərin sayı | |
| Fənnə ayrılmış saatların sayı | |
| Onlardan | |
| Mühazirələr | |
| Məşğələ | |
| Tələbənin sərbəst işi | |

**BAKI -2022**

**“FƏNNİNİN ADI”** fənninin proqramı Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən 13 avqust 2020- cü il tarixli F 370 nömrəli əmrlə təsdiq edilmiş Baza Təhsil Standartı və Azərbaycan Memarlıq və İnşaat Universitetinin 14 sentyabr 2020-ci il tarixli Elmi Şurasının 1 nömrəli protokolu ilə təsdiq edilmiş şifr– “İxtisasın adı” ixtisasının tədris planı əsasında tərtib olunmuşdur.

**Fənn proqramını tərtib edənlər**:

**Rəyçilər**:

Fənn proqramı Azərbaycan Memarlıq və İnşaat Universitetinin “__________” kafedrasının ___ _______ 202 -ci il tarixli iclasında, protokol №__, Azərbaycan Memarlıq və İnşaat Universitetinin _______ fakültəsinin Elmi-Metodik Şurasının ____ ______ 202 -ci il tarixli iclasında, protokol № ___, Azərbaycan Memarlıq və İnşaat Universitetinin ______ fakültəsinin Elmi Şurasının ___ _____ 202 -ci il tarixli iclasında , protokol №___ və Azərbaycan Memarlıq və İnşaat Universitetinin Elmi-Metodiki Şurasının ___ ______ 202 -ci il tarixli iclasında, protokol №___ müzakirə olunaraq çapa tövsiyə olunmuşdur.

**Giriş.**

**1. Ümumi qaydalar.**
**1.1. Fənnin tədrisinin məqsədi.**

**1.2. Fənnin tədrisinin əsas vəzifəsi.**

**1.3 Fənn üzrə bilik və bacarıqlara olan tələblər.**

Fənnin öyrənilməsi nəticəsində tələbələr aşağıdakıları
**bilməlidirlər:**

**bacarmalıdırlar**:
**1.4. Fənnin digər fənnlərlə əlaqəsi**

**2. Fənnin məzmunu.**
**2.1. Fənn üzrə saatların bölüşdürülməsi.**

**2.2. Mühazirə dərslərinin mövzuları və həcmi**

| № | Mühazirənin mövzusu və onun açıqlanması | Auditoriya saatları |
|---|---|---|
| 1 | 2 | 3 |
| 1 | **MÖVZU.**<br>MÖVZUNUN MƏZMUNU | |
| 2 | | |
| 3 | | |
| 4 | | |
| 5 | | |
| 6 | | |
| 7 | | |
| 8 | | |
| 9 | | |

| | | |
|---|---|---|
| **10** | | |
| **11** | | |
| **12** | | |
| **13** | | |
| **14** | | |
| | **CƏMİ** | |

**2.3. Məşğələ (laboratoriya) dərslərinin mövzuları və həcmi.**

| **№** | **Məşğələnin mövzu və onun açıqlanması** | **Auditoriya saatları** |
|---|---|---|
| **1** | **2** | **3** |
| **1** | **MÖVZU.**<br>MÖVZUNUN MƏZMUNU. | 2 |
| **2** | | |
| **3** | | |
| **4** | | |
| **5** | | |
| **6** | | |
| **7** | | |
| **8** | | |
| **9** | | |
| **10** | | |
| **11** | | |
| **12** | | |
| | CƏMİ | |

**3. Fənn üzrə tədris-metodiki materiallar.**

**3.1. Tövsiyə olunan ədəbiyyat**

**Əsas ədəbiyyat**

**1.**.

2..

3........

**Əlavə ədəbiyyat**

1.

2.

3. ............

**3.2. Əyani və digər tədris-metodiki vəsaitlərin, metodiki materialların siyahısı**

*

**Əlavə 5. Fənn sillabusu nümunəsi**

**AZƏRBAYCAN RESPUBLİKASININ TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN MEMARLIQ VƏ İNŞAAT UNİVERSİTETİ**

**“_________ FAKÜLTƏSİ”**

“____________________” kafedrası

“**<u>Təsdiq edirəm</u>**”:

“____________________”
kafedrasının müdiri:

____________________ elmi dərəcə, elmi ad, Soyad, a.a.

___ _____ 202 – ci il

**“FƏNNİN ADI”**
**FƏNNİ ÜZRƏ**
**İŞÇİ TƏDRİS PLANI**
***(sillabus)***

| | |
|---|---|
| **İxtisas** (*şifri və adı*) | |
| ***1. Fənn haqqında məlumat*** | |
| Fənnin adı | |
| Tədris dili | |
| Tədris ili | |
| Semestr | |
| Tədris forması | |

| | |
|---|---|
| Tədris pilləsi | |
| Qrup | |
| Fənnə ayrılmış tədris yükü və kredit | |
| Fənnin tədris günləri | |
| Tədris həftələrinin sayı | |
| Tədris auditoriyası | |
| ***2. Fənni tədris edən müəllim haqqında məlumat*** | |
| Fənn müəllimi | |
| *e- mail* ünvan | |
| Əlaqə telefonu | |

Bakı – 2022

**I. Müqəddimə**

.

**II. Fənninin öyrənilməsinin məqsədi**

Fənni öyrənən tələbələr aşağdakıları
**bilməlidirlər**:
-
-
-
**bacarmalıdırlar**:
-
-
-

❖ **III. Fənn üzrə tədris mövzuları, mövzuların məzmunu və tədris qrafiki**

| № | **Tarix** | **Mühazirənin mövzusu və planı** | **Auditoriya saatları** |
|---|---|---|---|
| 1 | | **Mühazirə № 1.**<br>**Mühazirənin planı**: | 2 |

| | | | |
|---|---|---|---|
| | | 1.<br>2.<br>3. …. | |
| 2 | | **Mühazirə № 2.**<br>**Mühazirənin planı**:<br>1.<br>2.<br>3. …. | 2 |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | **CƏMİ** | |

**V. Məşğələ dərsləri**

| № | **Tarix** | **Məşğələnin mövzusu və planı** | **Auditoriya saatları** |
|---|---|---|---|
| 1 | | **Məşğələ 1.**<br>**Məşğələnin planı**:<br>1.<br>2.<br>3. …… | 2 |
| 2 | | **Məşğələ 2.**<br>**Məşğələnin planı**:<br>1.<br>2.<br>3. …… | 2 |
| 3 | | | |
| 4 | | | |
| 5 | | | |
| | | **Kollokvium 1** | |
| 6 | | | |

| | | | |
|---|---|---|---|
| 7 | | | |
| 8 | | | |
| 9 | | | |
| 10 | | | |
| | | **Kollokvium 2** | |
| 11 | | | |
| 12 | | | |
| 13 | | | |
| 14 | | | |
| 15 | | | |
| | | **Kollokvium №3**. | |

**VI. Kurs layihəsi və onun xüsusiyyətləri**

.

**VII. Sərbəst iş**

:

| № | Mövzunun adı |
|---|---|
| 1 | |
| 2 | |
| 3 | |
| 4 | |
| 5 | |
| 6 | |
| 7 | |
| 8 | |
| 9 | |
| 10 | |

**VIII. Dərsə davamiyyətə qoyulan tələblər**

.

**IX. Qiymətləndirmə**

**Davranış qaydalarının pozulması.**

**X. Fənn üzrə tədris-metodiki materiallar**

**3.1. Tövsiyə olunan ədəbiyyat**
**Əsas ədəbiyyat**
**1.**
2..
3**……..**
.
**Əlavə ədəbiyyat**
**1.**
2..
3**……..**

**XI. Fənnin dərs cədvəli**

**XII. Tələbələrin fənn haqqında fikrinin öyrənilməsi**
*(irad və təklifləri)*
______________________________________________________________________
______________________________________________________________________
______________________________________________________________________
______________________________________________________________________
______________________________________________________________________
______________________________________________________________________
______________________________________________________________________
______________________________
______________________________________________________________________
____

Bu işçi tədris planı (sillabus) **________** – "**İxisas"** ixtisası üzrə bakalavriat səviyyəsinin Təhsil Proqramının Dövlət Standartına uyğundur.

Fənn üzrə bu işçi tədris planı (sillabus) **"KAFEDRANIN ADI"** kafedrasının ___ _____ 2022 -ci il tarixli iclasında müzakirə və təsdiq olunmuşdur, protokol №____

**Fənn müəllimi:** ____________________________ ___________________

***Əlavə 7. Professor-müəllim heyyətinin məmnunluq səviyyəsini müəyyənləşdirmək məqsədilə keçirilən sorğu anketi***

*1. Universitetdə mövcud olan maddi-texniki baza və tədris binasının (məs.auditoriyalar, dərsdə istifadə olunan tədris avadanlıqları və.s) günün tələblərinə uyğunluğu*

*2. Müəllim və tələbələr arasında münasibət*

*3. Müəllimlər və rektorat arasında münasibət*

*3. Müəllimlər və dekanlıq arasında münasibət*

*3. Müəllim-kafedra müdiri münasibətləri*

*4. Müəllim mübadilə proqramlarının həyata keçirilməsinin təşkili*

*5. Müəllimlərin ixtisasartırma prosesinin təşkili*

*6. Müəllimlərə tədris prosesində fərdi və peşəkar dəstəyin göstərilməsi*

*7. Şirkət və təşkilatlarla əməkdaşlıq səviyyəsi*

*8. Universitetdə mövcud olan iş şəraitinin komfortlu və rahat olması (infrasturktur, istilik, təmizlik və s.)*

*9. Bir müəllim kimi güclü tərəfləriniz hansılardır ? (Maksimum 3-ü qeyd edin)*

a. peşəkar bacarıqlarım

b. interaktiv tədris və öyrətmə üsullarını tətbiq etmək bacarığım

c. tələbələrlə ünsiyyət qurma bacarığım

d. elmi tədqiqat potensialım

e. praktiki təcrübəm

Digər ............................

*9. Bir müəllim kimi zəif tərəfləriniz hansılardır ? (Maksimum 3-ü qeyd edin)*

a. peşəkar bacarıqlarım

b. interaktiv tədris və öyrətmə üsullarını tətbiq etmək bacarığım

c. tələbələrlə ünsiyyət qurma bacarığım

d. elmi tədqiqat potensialım

e. praktiki təcrübəm

Digər ............................

*10. Gələcəkdə bacarıqlarınızı hansı üsullarla inkişaf etdirmək istərdiniz? (Maksimum 3-ü qeyd edin)*

- Seminar və təlimlərdə iştirak edərdim
- Konfranslarda təqdimatlarla və ya dinləyici kimi iştirak edərdim
- Avropa universitetlərində qazandığım təcrübəni təşkil etdiyim təlimlərdə başqaları ilə bölüşərdim
- Mütəxəssis kimi təlimlərdə iştirak edərdim
- Tədqiqat fəaliyyəti ilə məşğul olardım
- Ölkədə və ya xaricdə təşkil olunacaq təcrübə və mübadilə proqramlarında iştirak edərdim

Digər.................................................................................................................................
...........................

*11. Universitetin tələbələri haqqında fikirləriniz? (Maksimum 3-ü qeyd edin)*

- Fəal, öz məqsədlərinə doğru addımlayan
- Təşəbbüs göstərən
- Məsuliyyətli və bacarıqlı
- Öyrənmək həvəsi olmayan, məqsədləri ancaq diplom əldə etməkdir
- Müstəqil halda öyrənməyə həvəsi olmayan ancaq minimal tapşırıqları yerinə yetirən
- Dərsdənkənar bir çox fəaliyyətlərlə məşğul olan

Digər
…………………………………………………………………………………
…………………………………………………

*12. Tələbədə tədris etdiyiniz fənnə qarşı hansı üsullarla maraq və həvəs yarada bilirsiniz? (Xahiş edirik Sizə ən uyğun olan maksimum 3-ü qeyd edin)*

- Tədris fənninin onların gələcək peşə fəaliyyətində rolu ilə bağlı mütəmadi müzakirələr edirik
- Praktik üsullarla
- Onlara nəyin necə edilməli olduğu haqda hər tərəfli təlimatlar verirəm
- Tədrisdə ənənəvi mühazirələrə çox vaxt ayırmayaraq onları qarşılıqlı əlaqələr yaratmağa və təcrübəyə təşviq edirəm
- Tədris prosesində interaktiv və həvəsləndirici üsullardan istifadə edirəm
- Dərslərimdə qarşılıqlı fikir mübadiləsi yarada biləcək mühit formalaşdırıram

Digər.............................................................................................................................................................................................................

*13. Tələbələri qiymətləndirərkən hansı çətinliklərlə qarşılaşırsız ? (Sizə ən uyğun olan maksimum 3-ü qeyd edin)*

- Tətbiq olunan qiymətləndirmə metodları tələbələrin nailiyyət səviyyəsini tam ölçməyə imkan vermir
- Tələbələr nəzəri materialların öyrənilməsinə kifayət qədər diqqət yetirmirlər
- Tələbələr məsləhət üçün ayrılmış vaxtdan yararlanmırlar
- Tələbələr dərsə aid mənbələrdən məlumat əldə etməyə meyilli deyillər
- Tələbələr sərbəst şəkildə dərs oxumağa kifayət qədər vaxt ayırmırlar
- Auditoriyalarda internetin olmaması innovativ qiymətləndirmə üsulları tətbiq etməyə maneə yaradır

Digər.......................................................................................................................................................................

*14. Dərslərinizdə hansı tədris metodlarından istifadə edirsiniz? (Sizə ən uyğun olan maksimum 3-ü qeyd edin)*

- Ənənəvi mühazirə/seminar üsulu
- Praktik tapşırıqlar
- Müzakirələr (fikir/bilik mübadiləsi)
- Tematik tədqiqat
- Qrafik üsullar
- Qrup işləri və layihələr
- Problem düşünmə
- Nəşrlər, məqalələr və müxtəlif məlumat mənbələrindən istifadə edərək
- Qrup oyunları
- Təqdimat üsulları

Digər

...........................................................................................................................................................................

*15. Dərslərinizdə hansı tədris vəsaitlərindən / avadanlıqlardan istifadə etmək zəruridir? (Maksimum 3-ü qeyd edin)*

- Proyektor
- Multimedia avadanlığı
- Video materiallar
- Audio materiallar

- Kompüterlər
- İnternet
- İnteraktiv lövhə

Digər
..........................................................................................................................................
..................

*18. Müəllimlərin həvəsləndirilməsi və motivasiyası istiqamətində aşağıdakı hansı üsulların tətbiq olunmasını təklif edərdiniz? (Maksimum 3-ü qeyd edin)*

- *Maddi həvəsləndirməi (əmək haqqı və mükafatlar sisteminin təkmilləşdirilməsi)*
- *beynəlxalq mübadilə proqramlarında iştirak*
- *iş qrafikinin daha da sərbəst olmağı*
- *karyera imkanlarının daha da geniş olması*
- *dərs prosesində lazım olan maddi-texniki bazanın təkmilləşdirilməsi (otaqlarda kompyuter, proyektor, internet və s.)*
- *diferensial əmək haqqı sisteminin tətbiqi*
- *ixtisaslaşdırılmış auditoriyaların sayının artırılması*
- *laboratoriyaların daha işlək vəziyyətə gətirilməsi*

*Digər*
*…………………………………………………………………………………………………*
*…………………………………………………………………*

*19. Universitetdə dərsdan kənar olan vaxtınızı necə keçirirsiniz? (Maksimum 3-ü qeyd edin)*

- *Elmi təqdqiqatla məşqul oluram*
- *Tələbələrimə dərsdən əlavə məsləhət verirəm*
- *Universtetin ictimai həyatında aktiv iştirak edirəm*
- *Həmkarlarımla zaman keçirirəm*
- *Özümü inkişafla məşğulam*

*Digər*
*…………………………………………………………………………………………………*
*…………………………………………………………………*

*20. Tələbələr arasında tədris prosesi haqqında keçirilən sorğuya munasibətiniz?*

- *Dəstəkləyirəm, tam obyektiv olmasa da müəyyən məlumat əldə etməyə imkan verir*
- *Tamamilə qarşıyam, tələbələr obyektiv qiymət vermək iqtidarında deyillər*
- *Fərq etmir, sorğuların hansısa yeniliklər gətirəcəyinə inanmıram*

*Digər*
*……………………………………………………………………………………………………………………………………………………………………………………………………………*

*16. Tədris etdiyiniz fənni hər hansı xarici dildə tədris edə bilərsinizmi ?*

Bəli □ Xeyr □
Şərhlər..........................................................................................................................................................................................................

*16. Tədris etdiyiniz fənni hər hansı xarici dildə tədris etmək istərdinizmi ?*

Bəli □ Xeyr □

*17. Universitetin daxili (mənəvi) mühitini 5- ballıq sistemlə qiymətləndirin. Qeyd: 1 “ Pis ” və 5 “ Əla ”*

*18. Rəhbərliyin diqqətinə hansı məsələ və ya problemləri çatdırmaq istərdiniz?*

**............................................................................................................................................................................**

***Əlavə 8. Tələbələrin məmnunluq səviyyəsini müəyyənləşdirmək məqsədilə keçirilən sorğu anketi***

1. Mən tədris aldığım ixtisası özüm seçmişəm
a. Bəli
b. Xeyr (valideynlərimin, dostlarımın və s. məsləhəti ilə)
Digər …………

2. Mən ixtisasımı öyrənməkdən zövq alıram
a. Razıyam
b. Razı deyiləm
Digər …………

3. Mən fərqli bir ixtisas öyrənmək istərdim
a. Razıyam
b. Razı deyiləm
Digər …………

4. Mən başqa universitetdə oxumaq istərdim.
a. Razıyam
b. Razı deyiləm
Digər …………

5. Tədris prosesinin keyfiyyətini 5 ballıq sistemlə qiymətləndirin
Digər …………

6. Müəllimlər tədris prosesində mənə dəstək olurlar.
a. Az qismi
b. Çox qismi
Digər …………

7. Müəllimlərin özünəməxsus tədris üslubları var
a. Az qismin
b. Çox qismin
Digər …………

8. Müəllimlər tədris etdikləri fənləri yaxşı bilirlər.
a. Az qismi

b. Çox qismi
Digər …………

9. Müəllimlər tələbələrə ədalətli və obyektiv yanaşırlar.
a. Az qismi
b. Çox qismi
Digər …………

10. Dərs prosesini səmərəli təşkil olunması üçün lazım olan avadanlıqların mövcudluğunu (proyektor, internet, kompyuter) 1-dən 5-ə qədər qiymətləndirin:
Digər …………

11. Tədris prosesi müxtəlif yeni və maraqlı üsullarla təşkil olunur;
a. Razıyam
b. Razı deyiləm
Digər …………

12. Müəllimlər tələbələrin araşdırma qabiliyyətlərini inkişaf etdirməyə yardımçı olurlar
a. Az qismi
b. Çox qismi
Digər …………

13. Universitetin həyətində olan bufetdə verilən yemək və qiymətləri barədə fikrinizi söyləyin:
a. Çox kefiyyətsiz və baha
b.Keyfiyyətli və baha
c. Çox kefiyyətsiz və normal
d. Keyfiyyətli və normal
c. Bufetə getmirəm

14. Universitetin əsas korpusunda olan bufetdə verilən yemək və qiymətləri barədə fikrinizi söyləyin:
a. Çox kefiyyətsiz və baha
b.Keyfiyyətli və baha
c. Çox kefiyyətsiz və normal
d. Keyfiyyətli və normal
c. Bufetə getmirəm
Digər …………

15. Universitetin 3-cü korpusunda olan bufetdə verilən yemək və qiymətləri  barədə fikrinizi söyləyin:
a. Çox kefiyyətsiz və baha
b. Keyfiyyətli və baha
c. Çox kefiyyətsiz və normal
d. Keyfiyyətli və normal
c. Bufetə getmirəm
Digər …………

16. Universitetin təmizlik səviyyəsini 1-5 qədər qiymətləndirin
Digər …………

17. Universitetin kitabxanasını qiymətləndirin
a. istədiyim kitabları hər zaman tapıram
b. istədiyim kitabları nadir hallarda tapıram
c. Universitetdə kitabxananın olmasını bilmirdim
d. Kitabxanaya getmirəm
Digər …………

18. Universitetdə beynəlxalq tələbə mübadiləsi proqramlarını qiymətləndirin
a. xəbərim yoxdur
b. tələbələrin çox qismini əhatə edir
c. tələbələrin az qismini əhatə edir
Digər …………

19. Universitetdə keyfiyyət təminatı siyasətini qiymətləndirin
a. bu barədə anlayışım yoxdur
b. Yüksək
c. zəif
Digər …………

20. Dərs cədvəlinin təşkili 5 ballıq sistemlə qiymətləndirin
Digər …………

21. İmtahanların təşkili barədə fikrinizi söyləyin:
a. daha çox test imtahanlarının olmasının tərəfdarıyam
b. daha çox şifahi imtahanların olmasının tərəfdarıyam
c. daha çox yazılı imtahanların olmasının tərəfdarıyam
Digər …………

22. Universitetin tibb məntəqəsinin fəaliyyətini qiymətləndirin:
a. Yaxşı
b. Pis
c. Universitetdə tibb məntəqəsinin olduğunu bilmirdim
d. Xidmətlərindən istifadə etməmişəm
Digər …………

23. Tyutorların fəaliyyətini 1-5 qədər qiymətləndirin:
Digər …………

24. Dekan-tələbə münasibətlərini 1-5 qədər qiymətləndirin
Digər …………

25. Tələbə Həmkarlar Təşkilatının fəaliyyətini necə qiymətləndirirsiniz:
Tələbə-yönümlü
Universitet-yönümlü
Fəaliyyətindən məlumatım yoxdur
Digər …………

26. Tələbə Gənclər Təşkilatınının fəaliyyətini necə qiymətləndirirsiniz:
Tələbə-yönümlü
Universitet-yönümlü
Fəaliyyətindən məlumatım yoxdur
Digər …………

27. Universitet yataqxanaları barədə nə düşünürsünüz;
Orada qalmaq istərdim lakin yer olmadı
Orada qalmaq istərdim lakin şərait çox pis olduğu üçün qalmadım
Orada qalmağa ehtiyacım yoxdur
Universitetin yataqxanası olduğu barədə məluatım yoxdur
Digər …………

28. Universitetin mühafizə sistemini 1-dən 5-ə qədər qiymətləndirin
Digər …………